**rdoğan İranda mesaj verdi: “Bu qana son qoymalıyıq”**
07.04.15 19:56



Tehranda səfərdə olan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğaniranlı həmkarı Həsən Ruhani ilə görüşüb. **Modern.az** Türkiyə KİV-nə istinadən xəbər verir ki, görüşdən sonra hər iki prezident birgə mətbuat konfransı keçirib.

Rəcəb Tayyib Ərdoğan bildirib ki, İran prezidenti Həsən Ruhani ilə önəmli məsələləri müzakirə edib. Onun sözlərinə görə iki ölkə arasındakı iqtisadi əlaqələrdə qarşıya qoyulan məqsədlərə nail olunmayıb.

“Təəssüf ki, müəyyən etdiyimiz hədəfdə geriyik. Aramızdakı ticarət açığı İranın lehinədir, amma artıq yeni addımlar atmaq istəyirik. Biz istəyirik ki, iqtisadi əlaqələrdə İran və Türkiyə valyutalarından istifadə edilsin. Nə dollar, nə də avro təzyiqi ilə üzləşməyək”,-deyən Ərdoğan əlavə edib ki, Türkiyə ən bahalı qazı İrandan alır.

"İran qazın qiymətində endirim edərsə, daha çox qaz alarıq".

Türkiyə rəhbəri onu da deyib ki, həmkarı ilə Suriya və İraqdakı münaqişələri də müzakirə edib. “Artıq bu qana, ölümə birlikdə son verməliyik. Bir-birilə vuruşanları bir araya gətirmək lazımdır”,-deyə o vurğulayıb.